# Kəngərli sakinlərinin sayı 693 nəfərə çatdı





Böyük Qayıdışın Ağdam salnaməsi davam edir. İllərdir yurd həsrəti ilə yaşayan insanlar bu günü bayram ab-havası ilə yaşayırlar. İndiyədək onların bir arzusu vardı - bir gün yenidən göz açdıqları torpaqlara ayaq basmaq, uşaqlıq xatirələrini canlandırmaq. İndi artıq bu arzu gerçəyə çevrilib.

Dünən Ağdam rayonunun yenidən qurulan Kəngərli kəndi növbəti qayıdış karvanını qarşılayıb. Bu mərhələdə kəndə 48 ailə - 206 nəfər köçürülüb. Bununla da Kəngərli sakinlərinin sayı 693 nəfərə çatıb. Birinci mərhələsinin açılışı bu il mayın 10-da baş tutan Kəngərliyə ilk olaraq 1279 nəfərin köçürülməsi planlaşdırılır. Ümumilikdə isə kənd 2544 sakin üçün nəzərdə tutulub.

Doğma yurduna qovuşan keçmiş məcburi köçkün Qara Səmədov deyib ki, bu gün onun üçün ən sevincli və qürurlu günlərdən biridir: "Doğma el-obama - Ağdam rayonuna qayıtmışam. Bundan sonra bu torpaqlarda əbədi yaşayacağıq. Biz hamımız bu xoş günün gələcəyinə ümid edirdik. Bu günləri bizə yaşadan Ali Baş Komandan İlham Əliyevə, rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə öz minnətdarlığımı bildirirəm. Qəhrəman şəhidlərimizə Allahdan rəhmət, məğrur qazilərimizə isə şəfa diləyirəm".

Kəngərli sakini Çiçək Babayevanın sözlərinə görə, bütün keçmiş məcburi köçkünlər kimi o da sevinc, qürur, fəxr hissi ilə öz doğma yurduna, el-obasına qayıdıb: "Allaha çox şükür ki, haqq-ədalət öz yerini tapdı, doğma yurd həsrətimiz sona yetdi. Bu hadisələri mən gənc yaşlarımda yaşamışam. İndi isə öz ailəmlə doğma ata ocağıma qayıdıram. Sevincimizin həddi-hüdudu yoxdur".

Qeyd etmək lazımdır ki, qayıdışın reallaşdırıldığı digər ərazilərimizdə olduğu kimi, Kəngərlidə də sakinlərin rahatlığının təmin edilməsi üçün hər cür şərait yaradılıb, iqtisadi, təhsil, sosial, mədəni və məişət təyinatlı müxtəlif obyektlər tikilib, yollar, elektrik, rabitə, su xətləri çəkilib, qaz təchizatı təmin olunub. Kəngərlidə 120 yerlik körpələr evi-uşaq bağçası, müxtəlif dərnəklərin fəaliyyət göstərəcəyi, əlamətdar günlərlə bağlı müxtəlif tədbirlərin keçiriləcəyi ikimərtəbəli klub-icma mərkəzi, əhaliyə göstəriləcək xidmətlərin vahid məkandan təqdim olunmasına imkan yaradacaq yerli icra strukturları üçün inşa edilmiş çoxfunksiyalı inzibati bina tikilib.

Qürurla deyə bilərik ki, bu günədək 14 mindən çox keçmiş məcburi köçkün əzəli torpağına qovuşub, 15 yaşayış məntəqəsində, yəni 5 şəhər və 10 kənddə daimi məskunlaşma reallaşdırılıb.

Qarabağ və Şərqi Zəngəzurda sürətlə həyata keçirilən bərpa və quruculuq işlərinə nəzər yetirdikdə aydın görmək olur ki, tezliklə azad edilmiş hər bir qarış torpağımızda həyat axarına dönəcək, bütün keçmiş məcburi köçkünlərimizin yurd həsrəti bitəcək.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

Azərbaycan.- 2025.- 28 may (№ 110).- S.21.